

# Mirzə Ələkbər Sabirin həyat və yaradıcılığı haqqında

**(1862-1911)**

## *Həyatı*

Mirzə Ələkbər "Sabir (Ələkbər Zeynalabdin oğlu Tahirzadə) 30 may 1862-ci ildə Azərbaycanın əsas mədəniyyət mərkəzlərindən olan Şamaxıda anadan olmuşdur. Ələkbər kiçik yaşlarında ikən mollaxana məktəbində ərəb, fars dillərini öyrənmiş, Şərq ədəbiyyatı nümunələri ilə tanış olmaq imkanı qazanmışdı. Lakin o dövrün mollaxana məktəblərinin sərt recimi, tədris üsulları gənc Ələkbəri razı salmamışdı. Təxminən 10-11 yaşlarında Ələkbər Tahirzadənin yazdığı «Tutdum orucu irəmazanda» şeiri onun kiçik yaşlarından cəmiyyətdəki prosesləri dərk etməyə çalışdığını, yeniləşməyə can atdığını göstərir.

Ələkbər Tahirzadə 1874-1883-cü illərdə görkəmli şair Seyid Əzim Şirvaninin (1835-1888) dərs dediyi Şamaxı quberniya məclisi məktəbində dünyəvi elmləri həvəslə öyrənmiş, klassik ədəbiyyatı mütaliə etməyə ciddi maraq göstərmişdir. Ustad Seyid Əzim Şirvani gənc Ələkbərin istiqamətləndirilməsi və həvəsləndirilməsində, bədii zövqünün inkişaf etdirilməsində mühüm rol oynamışdır. Görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin «Xəmsə»sini öz şagirdinə bağışlaması Sabirin istedad və qabiliyyətinə olan inamının ifadəsi idi. Bütün bunlar Sabirin bədii yaradıcılıq yolunu seçməsinə ciddi təsir göstərmişdir. Buna görə də baqqallıq edən atasının ciddi səylərinə baxmayaraq, gənc Sabir ruhani, yaxud tacir deyil, satirik şair kimi yetişib formalaşmışdır. O, hələ məktəbli ikən şeirlər yazmış, Sədi Şirazinin «Gülüstan» əsərindən bir parçanı Azərbaycan dilinə tərcümə etmişdir.

Şərq ölkələrinə 1884-1886-cı illərdə etdiyi səyahətlər M.Ə.Sabirin bilik və məlumatlarını, dünyagörüşünü inkişaf etdirmişdir. İranın Səbzivar, Nişapur, Xorasan, Həmədan vilayətlərində, qədim Buxara və Səmərqənddə, məşhur dini ziyarətgahlardan Kərbəlada səfər zamanı müşahidə etdiyi təzadlı hadisələr, rastlaşdığı zavallı insanlar, görüşdüyü mütərəqqi ziyalılar, oxuyub öyrəndiyi əsərlər onun üçün böyük həyat və sənət məktəbi rolunu oynamışdır.

M.Ə.Sabir 1887-ci ildə Şamaxıda yaxın qohumlarından olan Billurnisə adlı bir qızla ailə həyatı qurmuşdur. Bu nikahdan onun səkkiz qızı və bir oğlu dünyaya gəlmişdir. Çoxuşaqlı bir ailənin başçısı kimi o, çətin, məşəqqətli ömür yaşamış, hətta sabun bişirib satmağa məcbur olmuşdur. Şamaxıda 1902-ci ildə baş vermiş dəhşətli zəlzələnin M.Ə.Sabirin də ailəsini evsiz-eşiksiz qoyması onun ağır keçən həyatını daha da çətinləşdirmişdir. Lakin heç bir məhrumiyyət Sabirin qürurunu sındıra

bilməmişdir. Məslək və sənət dostu Abdulla Şaiqlə Şamaxıda ilk görüşü zamanı dediyi «Bir çox adamın batini kirini təmizləmək əlimizdən gəlmir. Zahiri kirini təmizləmək üçün sabun bişirmək peşəsini qəbul etmişəm» sözləri onun həyat və sənət qayəsini dolğun ifadə edir.

Tehranda ali həkimlik təhsilini 1901-ci ildə başa vurub Şamaxıya qayıdan Abbas Səhhətlə səmimi dostluq münasibətləri onun şeirə-sənətə marağını qüvvətləndirmişdir. Yerli yaradıcı qüvvələrdən Ağəli bəy Əfəndizadə Naseh və Məhəmməd Tərrahla birlikdə təşkil etdikləri kiçik ədəbi məclis Şamaxıda maarifçilik və ədəbiyyatın inkişafında mühüm addıma çevrilmişdir. Məşhur ədəbiyyatşünas Firudin bəy Köçərli (1863-1920) və Həsən bəy Zərdabi (1842-1911) ilə tanış olması onun ədəbi dünyagörüşünün zənginləşməsinə müsbət təsir göstərmişdir. Tiflisdə 1903-cü ildən nəşrə başlayan «Şərqi-Rus» qəzetində mənzum təbriknaməsinin dərc olunması onu bir daha sənət və mətbuat aləminə bağlamışdır. «Həyat» qəzetində 1905-ci ildə çap olunan məşhur «Beynəlmiləl» şeiri artıq Sabirin yetkin dünyagörüşündən və xüsusi bədii istedadından xəbər verir. 1906-cı ildən Cəlil Məmmədquluzadənin (1869-1932) redaktorluğu ilə Tiflisdə nəşr olunan «Molla Nəsrəddin» jurnalı onun yaradıcılığında satiranın meydanının genişlənməsinə, Mirzə Cəlillə məslək dostluğunun formalaşmasına səbəb olmuşdur.

Bakı quberniya ruhani idarəsində müəllimlik sənətinə yiyələnmək üçün 11 aprel 1908-ci il tarixdə imtahan vermiş M.Ə.Sabir Qafqaz Şeyxülislamı tərəfindən imzalanmış ana dili və şəriət müəllimi diplomu almışdır. Bundan az sonra onun Şamaxıda açdığı «Ümid» adlı ibtidai məktəbdə təxminən 60 nəfərə qədər şagird ana dili və şəriət dərsləri ilə yanaşı hesab, coğrafiya, təbiət, nəğmə kimi dünyəvi fənləri də öyrənmək imkanı qazanmışdır. Məktəbdə həmçinin yeni tədris üsullarından istifadə olunur, maraqlı ekskursiyalar təşkil edilirdi. Bununla belə, qaragüruhçu qüvvələr bu yeni məktəbi və yenilikçi müəllimi boykot etməyə çalışmış, məktəbin normal fəaliyyətinə maneçilik törətmişlər.

Ailəsini yaşatmaq üçün iş yeri tapmaq məqsədi ilə 1910-cu ilin əvvəllərində Bakıya gələn M.Ə.Sabir əvvəlcə «Zənbur» jurnalı redaksiyasında, sonra isə Balaxanı məktəbində çalışmışdır. Bakıda çıxan «Günəş» və «Həqiqət» qəzetləri redaksiyasındakı fəaliyyəti, xüsusən «Günəş» qəzetinə əlavə kimi nəşr edilən «Palanduz» adlı həftəlik gülüş səhifəsində «Çuvalduz», «Nizədar» imzaları ilə öz şeirlərini dərc etdirməsi Sabirin yeni mühitdə tanınmasında müstəsna rol oynamışdır. Bundan başqa o, Balaxanıda neft fəhlələri üçün təşkil olunmuş «Nur» kitabxanasının fəal oxucusuna çevrilmiş, işçilərin ağır həyatı və məişəti ilə maraqlanmışdır.

Qaraciyər xəstəliyinə tutulan M.Ə.Sabir 1910-cu ilin sentyabr-noyabr aylarında Bakıda müalicə olunmuş, xəstəliyinə əlac olmadığı üçün Şamaxıya qayıtmışdır. Tiflisə gedib məslək dostu C.Məmmədquluzadənin köməyi ilə müayinədən keçmək və müalicə olunmaq qərarına gəlmişdir. Bundan xəbər tutan

C.Məmmədquluzadə Kəhrizlidən Tiflisə, o zaman «Molla Nəsrəddin» jurnalını idarə edən Məmmədəli Sidqiyə (1888-1956) aşağıdakı məzmunda məktub göndərmişdir: «Sabir bu yaxınlarda müalicə üçün Tiflisə gələcək. Onu redaksiyada saxla, istirahətinə çalış. Müalicəsinə hər cəhətdən diqqət et. Tiflisin məşhur professor və həkimlərinə göstər… Hər barədə ondan muğayat ol… Nə lazım olsa mənə xəbər ver».

Sabir 4 fevral 1911-ci ildən mart ayının axırlarına qədər Tiflisdə Mirzə Cəlilə məxsus evdə yaşayıb müalicə olunmuşdur. C. Məmmədquluzadənin səyi nəticəsində tanınmış həkimlər xəstə şairi müayinədən keçirmiş, cərrahiyyə əməliyyatı aparılması zərurətini nəzərinə çatdırmışlar. Lakin M.Ə.Sabir buna razı olmadığı üçün Şamaxıya qayıtmışdır. O, dostu Abbas Səhhətə göndərdiyi məktubunda Mirzə Cəlilin və Həmidə xanımın ona göstərdiyi qayğıdan dərin minnətdarlıq duyğusu ilə söz açaraq yazmışdır: «Mirzə Cəlil və Həmidə xanım cənablarından çox razıyam. Bilirsən, mənə nə qədər ehtiram edirlər! Mənim mehmanxana, ya xəstəxanada yatmağıma razı olmadılar. Öz evlərində mənzil vermişlər. Xülasə, bilmirəm nə dil ilə təşəkkür edim… Doktorları cəm edib, konsultasiya (məsləhət) yapdılar».

«Molla Nəsrəddin» jurnalı M.Ə.Sabirin müalicəsinin təşkilinə və ailəsinə kömək üçün oxuculara müraciətnamə ünvanlamışdır. Dövrünün maarifçi ziyalıları «Molla Nəsrəddin»in müraciətinə cavab olaraq ianə toplanmasına səfərbər olmuşlar. Lakin müalicə üçün görülən tədbirlər müsbət nəticə verməmişdir. Cərrahiyyə aparılması üçün 8 iyul 1911-ci ildə Bakıya gələn şair dərdinə əlac olmadığı üçün geri qayıtmağa məcbur olmuşdur. Aşağıdakı misralar həmin günlərin əhvali-ruhiyyəsinin nəticəsidir:

Arizi-qəmlər əlindən ürəyim şişmiş idi,
Zənn edirdim edəcəkdir ona çarə ciyərim.
Bəxti-mənhusimə bax, mən bu təmənnada ikən
Başladı şişməyə indi üzü qarə ciyərim.

Böyük satirik şair M.Ə.Sabir 12 iyul 1911-ci ildə Şamaxıda vəfat etmiş, «Yeddi günbəz» qəbristanlığında dəfn olunmuşdur.

Vəfatından bir il sonra, 1912-ci ildə Abbas Səhhət və Mahmud bəy Mahmudbəyovun təşəbbüsü və köməyi ilə M.Ə.Sabirin şeirləri «Hophopnamə» adı ilə kitab halında nəşr edilmişdir. Həmin kitab bir qədər təkmilləşdirilərək 1913-cü ildə yenidən çapdan buraxılmışdır. Bundan sonra əsərləri XX əsr boyu «Hophopnamə» adı ilə dəfələrlə böyük tirajla nəşr edilmiş, Avropa və Şərq xalqlarının dillərinə çevrilmişdir.